# Qurtuluşdan başlanan yol uğurla davam edir





**15 iyun 1993-cü il Azərbaycan xalqının tarixində unudulmaz, şanlı səhifədir. Qurtuluş adlandırdığımız bu gün həqiqətən də dövlətimizin və xalqımızın müqəddəratını həll etdiyi, sabaha inam bəslədiyi gündür. Qurtuluşumuzun banisi, o dövrdə xalqın təkidi ilə yenidən hakimiyyətə gətirdiyi Ulu Öndər Heydər Əliyevdir.**

**Ağır günlərdə - torpaqlarımız erməni təcavüzkarları tərəfindən anbaan işğal olunduğu, ölkədə hərc-mərcliyin, hakimiyyətsizliyin, qarşıdurmaların baş alıb getdiyi, büdcənin boş olduğu, insanların ümidsizliyə qapıldığı, beynəlxalq aləmdən təcrid olunduğumuz dövrdə hakimiyyətə gəlmək, xalqı mübarizəyə səfərbər etmək çox müşkül, çətin bir vəzifə olsa da, Heydər Əliyev torpağı və xalqı naminə bu vəzifəni öz üzərinə götürdü və ölkəni parçalanmaqdan xilas etdi.**

Bu, xilaskarlıq missiyası idi, bu vəzifəni yalnız və yalnız xalqına inanan, vətənini canı qədər sevən və dəyərləndirən, bir çox mübarizələrdən qalib çıxan Heydər Əliyev kimi dahi şəxsiyyət yerinə yetirə bilərdi. Çünki o, tarixin sınaqlarından həm təşkilatçı, uzaqgörən rəhbər, siyasətçi, həm sədaqətli vətəndaş, həm də mehriban, vətənpərvər insan kimi çıxmış, ən çətin anlarda xalqı ilə bir olduğunu sübut etmişdi.

İstər Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə, istər Moskvada yaşadığı - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu illərdə, istərsə də vəzifədən uzaqlaşdırıldığı və Naxçıvanda yaşadığı dövrlərdə Heydər Əliyev Vətəndən, xalqdan uzaq olmamış, Azərbaycanın taleyi, gələcəyi barədə düşünmüş, ömrünü, gününü vətəninin səadətinə, gələcəyinə bəxş etmişdi.

O, qətiyyətli, inamlı, müdrik insan idi. Qorbaçov kimi ermənipərəst bir rəhbərin səhvlərini üzünə deməkdən çəkinməmişdi. Qətiyyətli hərəkətləri, tutarlı çıxışları, mehriban davranışları, insani xüsusiyyətləri ilə Sovetlər İttifaqının xalqlarının dərin hörmət və məhəbbətini qazanmışdı ki, bu gün də insanlar onun əməllərindən, amallarından, dəyərli işlərindən, tədbirlərindən ürəkdolusu söz açırlar. Baykal-Amur dəmir yolunun çəkilişində yüksək fəaliyyəti, təşkilatçılıq bacarığı bu gün də nümunə göstərilir. 20 Yanvar faciəsinə verdiyi qiymət xalqımızın qəlbinin səsi idi və bu, tarix boyu unudulmayacaq. Naxçıvanın mühafizəsi, Gəncə qiyamının qarşısının alınması, Milli Qurtuluş Gününün həqiqətə çevrilməsi yaddaşımızın unudulmaz anlarıdır.

Azərbaycan xalqı tariximizin bu səhifələrini demək olar ki, hər gün vərəqləyir, Ulu Öndərimiz Heydər Əliyevi məhəbbətlə yad edir. Ona görə ki, qurtuluş tariximiz bizə yeni, mənalı bir həyat, gələcək bəxş edib.

Heydər Əliyevin hakimiyyətə gəlişi ölkədə ictimai-siyasi sabitlik yaratdı, silahlı qruplaşmaları neytrallaşdırdı, qarşıdurmaların qarşısını aldı, ölkəni iqtisadi-siyasi böhrandan, bir çox təhlükələrdən xilas etdi. "Əsrin müqaviləsi"nin imzalanması, yeni layihələrin həyata keçirilməsi, beynəlxalq aləmlə münasibətlərin yaxşılaşdırılması, insanlarda yaşamağa, yaratmağa inam, həvəs yaradılması bu günümüz, inkişafımız üçün zəmin oldu və Azərbaycanın yüksək nailiyyətlərini təmin edir. Ulu Öndərimizin qurtuluşdan başladığı yol bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və torpaqlarımızın işğaldan azad edilməsi bu qurtuluşun davamı və ən şanlı səhifəsidir.

Heydər Əliyev bu günümüzün təntənəsi üçün çox böyük çətinliklərə sinə gərdi, Qarabağ torpaqlarının azadlığı naminə bütün qüvvələri səfərbər etdi, səylərini birləşdirdi, beynəlxalq tribunalardan haqq səsini ucaltdı, yatmış vicdanları silkələdi, oyatdı, çox siyasətçilərə dərs verdi, yollar aradı, planlar cızdı.

Ümummilli Liderimiz Qarabağın azadlığına inanırdı və İlham Əliyevin timsalında bu qələbənin gerçəkləşəcəyinə əmin idi. Çünki onun qabiliyyətinə, vətənpərvərliyinə bələd idi və bilirdi ki, İlham Əliyev xalqı öz ətrafında birləşdirməyi, ordunu gücləndirməyi bacaracaq, öz vəzifəsinin öhdəsindən gələcək və ata yolunu davam etdirəcək, xalqının və torpağının xilaskarı kimi ucalacaq.

Heydər Əliyev hadisələri qabaqlamağı bacardığı kimi, həm də gələcəyi aydın görürdü. Onun xalqının dilinə, dininə, tarixinə, milli-mənəvi dəyərlərinə ehtiramı, insanlara inamı, azərbaycançılıq duyğuları əsrləri geridə qoyub işıqlı sabahımızı görməsinə imkan yaradırdı. Çünki tarixin sınaqları, dövlətçiliyimiz, mübarizliyimiz, müşahidələr, birlik, dövrün gedişi bunu diktə edirdi.

Qurtuluş tariximizi yad etdiyimiz, qələbələrimizə sevindiyimiz, torpaqlarımızın azadlığından suverenliyimizin tam bərpa olunmasından qürur duyduğumuz bu günlərdə yenə Heydər Əliyev ideyalarına sığınırıq, arxalanırıq və o bəşəri amalların, istəklərin işığında xalqımız gələcəyə doğru inamlı addımlar atır.

Ürəyimizdə Heydər Əliyev ideyaları, önümüzdə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev, köməyimizdə ordumuz və xalqımız irəliyə, inkişafa, qələbələrə doğru gedirik. Bu yolun başlanğıcı qurtuluş, davamı sülh, əminamanlıq, xoşbəxtlik və tərəqqidir. Yolumuz uğurlu olsun!

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

Azərbaycan. - 2024.- 15 iyun, № 126.- S.7.